**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığın təşkilini və tənzimlənməsini həyata keçirir, BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn dayanıqlı inkişaf məqsədləri və hədəflərinin həyata keçirilməsi məqsədilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin (bundan sonra - Katiblik) funksiyasını həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, publik hüquqi şəxslər və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq istiqamətində dövlət siyasətinin işlənib hazırlanmasında iştirak edir;

2.1.2. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi və yeni əlaqələrin qurulması sahəsində tədbirlər həyata keçirir;

2.1.3. Avropa İttifaqı ilə ölkənin əməkdaşlığının əlaqələndirilməsini həyata keçirir;

2.1.4. dayanıqlı inkişaf məqsədləri və hədəflərinə uyğun milli prioritetləri və onlara dair göstəricilərin müəyyən edilməsi ilə bağlı əlaqələndirmə işlərini təmin edir;

2.1.5. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyətinin təmin edilməsi məqsədi ilə Katiblik funksiyasının həyata keçirilməsi və dayanıqlı inkişaf məqsədlərindən irəli gələn hədəflərin icrası ilə bağlı dövlət orqanlarının, təşkilatlarının və müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı təşkilati işlərin həyata keçirilməsini təmin edir;

2.1.6. Azərbaycan Respublikası Hökuməti və BMT arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi üzrə BMT ilə əməkdaşlığın həyata keçirilməsi, mövcud əlaqələrin gücləndirilməsi və yeni əlaqələrin qurulması sahəsində tədbirləri hazırlayır və bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə əlaqələndirmə işlərini həyata keçirir;

2.1.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq sahəsində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı həyata keçirmək, inkişaf etdirmək və yeni əlaqələrin qurulması sahəsində tədbirlər görmək;

3.1.3. beynəlxalq iqtisadi təşkilatlar tərəfindən daxil olmuş müraciətləri, hesabat və məlumatları təhlil etmək, ölkənin maraqları baxımından qiymətləndirmək və bu istiqamətdə rəy və təkliflər hazırlamaq;

3.1.4. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq sahəsində vəziyyətin monitorinqini həyata keçirmək;

3.1.5. bu Əsasnamə ilə müəyyən olunmuş səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı qanunvericilik aktlarının, müqavilələrin (sazişlərin, konvensiyaların və s.), təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, belə layihələrin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

3.1.6. beynəlxalq müqavilələrdən (sazişlərdən, konvensiyalardan və s.) və beynəlxalq iqtisadi təşkilatlar çərçivəsində qəbul olunmuş digər sənədlərdən irəli gələn öhdəliklərin Nazirliyin fəaliyyət istiqamətləri üzrə ekspertizasını həyata keçirmək, ölkənin qeyd olunan sənədlərdə iştirakının məqsədəuyğunluğuna dair Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə rəy vermək;

3.1.7. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq sahəsində ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin (sazişlərin, konvensiyaların və s.) icrasına Nazirliyin fəaliyyət istiqamətləri üzrə nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

3.1.8. beynəlxalq iqtisadi təşkilatlar tərəfindən qəbul edilmiş aidiyyəti regional və qlobal strategiyaların, proqramların və layihələrin milli prioritetlərlə uzlaşdırılması üçün təkliflər hazırlamaq;

3.1.9. bu Əsasnamə üzrə müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə beynəlxalq iqtisadi təşkilatlar tərəfindən keçirilən tədbirlərin, o cümlədən forumların, konfransların, sərgilərin və digər tədbirlərin işində iştirak etmək və belə tədbirlərin ölkədə və xaricdə keçirilməsini təşkil etmək;

3.1.10. Avropa İttifaqı ilə ölkənin əməkdaşlığının, o cümlədən institusional quruculuq alətlərinin və təşəbbüslərinin səmərəli təşkilini təmin etmək, maliyyə və texniki yardım göstəriləcək sahələri müəyyənləşdirmək, bu sahədə proqram və layihələrin hazırlanmasında və qiymətləndirilməsində, habelə icra olunacaq layihələrin seçimində iştirak etmək;

3.1.11. Avropa İttifaqının yardım proqramlarının yerinə yetirilməsinə, bu proqramlarla bağlı imzalanmış müqavilələrin həyata keçirilməsinə nəzarət etmək, dövlət orqanları, müəssisə və təşkilatları tərəfindən yardım proqramlarının həyata keçirilməsi ilə bağlı təqdim olunan məlumatları ümumiləşdirərək Nazirliyin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.1.12. Avropa İttifaqı ilə əməkdaşlığı əlaqələndirmək, aidiyyəti dövlət orqanı və təşkilatlarının müraciətlərinə əsasən aidiyyəti tədbirlər görmək, layihələrin məqsədli və

səmərəli yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

3.1.13. ölkənin Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsini müəyyən edən ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlər çərçivəsində aparılan danışıqlarda mütəmadi iştirak etmək, Azərbaycan tərəfinin müvafiq istiqamətlər üzrə ümumiləşdirilmiş mövqeyini qarşı tərəfə təqdim etmək, habelə bu sazişlərin icrası ilə bağlı aidiyyəti üzrə yaradılan işçi mexanizmlərin fəaliyyətini əlaqələndirmək;

3.1.14. Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə dövlət orqanlarının, təşkilatlarının və müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Katiblik funksiyasının həyata keçirilməsini təmin etmək;

3.1.15. Azərbaycan üçün müəyyən edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə hədəf və göstəricilərə dair görülmüş işlər barədə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna və Azərbaycan Respublikasının Prezidentinə hesabat layihəsinin Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə hazırlanmasını təşkil etmək;

3.1.16. dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi ilə bağlı maraqlı tərəflərin cəlb olunması və maarifləndirmə tədbirlərinin genişləndirilməsi ilə əlaqədar təbliğat-təşviqat tədbirlərinin keçirilməsində iştirak etmək;

3.1.17. dayanıqlı inkişaf üzrə icra vasitələrinin gücləndirilməsi və dayanıqlı inkişaf naminə qlobal tərəfdaşlığın genişləndirilməsi məqsədilə BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığı inkişaf etdirmək;

3.1.18. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.19. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.1.20. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.21. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.22. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı təşkil etmək və həyata keçirmək, əməkdaşlıq sahəsində təkliflər vermək;

4.1.2. beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq sahəsində danışıqlar aparmaq və danışıqların aparılmasında iştirak etmək;

4.1.3. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;

4.1.4. Nazirliyin strukturları tərəfindən hazırlanmış qanunvericilik aktlarının, müqavilələrin (sazişlərin, konvensiyaların və s.), təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair rəy və təkliflər vermək;

4.1.5. Avropa İttifaqı ilə əməkdaşlıq üçün əhəmiyyət kəsb edən layihələrin müəyyənləşdirilməsi üzrə təkliflər vermək, onların tərəfdaşlıq proqramlarında, təsisat və institutlarının təşəbbüs və tədbirlərində iştirak etmək;

4.1.6. beynəlxalq iqtisadi təşkilatlar tərəfindən ölkədə və xaricdə keçirilən tədbirlərdə, o cümlədən forumlarda, konfranslarda, sərgilərdə və digər tədbirlərdə iştirak etmək;

4.1.7. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.8. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.1.9. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar təkliflər vermək, Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.10. dövlət orqanlarına və beynəlxalq təşkilatlara müraciətlərin layihələrini hazırlamaq və hazırlanmasında iştirak etmək;

4.1.11. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən edilir və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz. Şöbənin strukturuna Qlobal təşkilatlarla əməkdaşlıq sektoru və Regional təşkilatlarla əməkdaşlıq sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar). Şöbə müdiri olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin

vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Qlobal təşkilatlarla əməkdaşlıq sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. qlobal təşkilatlarla əməkdaşlığın əlaqələndirilməsi və yeni əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi üçün tədbirlər görmək;

6.1.2. qlobal təşkilatlarla əməkdaşlıq istiqamətində dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.1.3. qlobal təşkilatlarla əməkdaşlıq sahəsində beynəlxalq müqavilələrin (sazişlər, konvensiyalar və s.) layihələrinin hazırlanmasında iştirak etmək;

6.1.4. qlobal təşkilatlarla imzalanmış beynəlxalq müqavilələr (sazişlər, konvensiyalar və s.) və qlobal təşkilatlar çərçivəsində qəbul olunmuş digər sənədlərdən irəli gələn öhdəliklərlə bağlı təhlil aparmaq və ölkənin qeyd olunan sənədlərdə iştirakı ilə bağlı təkliflər hazırlamaq;

6.1.5. qlobal təşkilatlarla əməkdaşlıq çərçivəsində beynəlxalq müqavilələrin (sazişlər, konvensiyalar və s.) imzalanması və ya onlara qoşulmaqla bağlı müvafiq prosedurların həyata keçirilməsi;

6.1.6. qlobal təşkilatlarla əlaqələrin inkişaf dinamikasını təhlil etmək;

6.1.7. qlobal təşkilatlarla əməkdaşlıq istiqamətində məlumat bazası yaratmaq;

6.1.8. qlobal təşkilatların təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirak etmək, habelə bu cür tədbirlərin ölkədə təşkil edilməsini təmin etmək;

6.1.9. qlobal təşkilatlarla əməkdaşlıq sahəsində Nazirliyin rəhbər şəxslərinin təmsil olunduğu bu və ya digər tədbirlər, səfərlər və görüşlərlə bağlı müvafiq təşkilati işlər həyata keçirmək, iştirak etmək və bununla əlaqədar hesabatlar hazırlamaq;

6.1.10. qlobal təşkilatlar tərəfindən qəbul edilmiş aidiyyəti proqramların və layihələrin Nazirliyin fəaliyyət istiqamətləri üzrə ekspertizasını həyata keçirmək və bu sənədlərin milli prioritetlərlə uzlaşdırılması üçün təkliflər hazırlamaq;

6.1.11. Azərbaycan Respublikasında Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə iqtisadi və sosial sahələr üzrə vəziyyəti təhlil etmək və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.12. Dayanıqlı İnkişaf Məqsədlərinin iqtisadi və sosial məsələlər üzrə dövlət orqanları, təşkilatları və müəssisələrinin nümayəndələrindən təşkil olunmuş İşçi Qruplarının fəaliyyətini Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə əlaqələndirmək;

6.1.13. Dayanıqlı İnkişaf Məqsədləri üzrə ölkə prioritetlərinə uyğun seçilmiş məqsəd, hədəf və göstəricilər üzrə illik yekun hesabatın hazırlanmasını təşkil etmək;

6.1.14. müxtəlif ölkələrin Dayanıqlı İnkişaf Məqsədləri üzrə təcrübələri təhlil etmək və onların milli kontekstdə tətbiqi imkanlarına dair təklifləri Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə hazırlamaq;

6.1.15. Azərbaycan Respublikası Hökuməti və BMT arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi çərçivəsində iqtisadi, sosial və ekoloji istiqamətlər üzrə yaradılmış İşçi Qruplarının fəaliyyətini əlaqələndirmək, habelə müştərək iş planları və onların icrası ilə bağlı təkliflər vermək;

6.1.16. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Regional təşkilatlarla əməkdaşlıq sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. regional təşkilatlarla əməkdaşlığın əlaqələndirilməsi və yeni əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi üçün tədbirlər görmək;

6.2.2. regional təşkilatlarla əməkdaşlıq istiqamətində dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.2.3. regional təşkilatlarla əməkdaşlıq sahəsində beynəlxalq müqavilələrin (sazişlər, konvensiyalar və s.) layihələrinin hazırlanmasında iştirak etmək;

6.2.4. regional təşkilatlarla əməkdaşlıq çərçivəsində beynəlxalq müqavilələrin (sazişlər, konvensiyalar və s.) imzalanması və ya onlara qoşulmaqla bağlı müvafiq prosedurların həyata keçirilməsi;

6.2.5. regional təşkilatlarla imzalanmış beynəlxalq müqavilələr (sazişlər, konvensiyalar və s.) və regional təşkilatlar çərçivəsində qəbul olunmuş digər sənədlərdən irəli gələn öhdəliklərlə bağlı təhlil aparmaq və ölkənin qeyd olunan sənədlərdə iştirakı ilə bağlı təkliflər hazırlamaq;

6.2.6. regional təşkilatlarla əlaqələrin inkişaf dinamikasını təhlil etmək;

6.2.7. regional təşkilatlarla əməkdaşlıq istiqamətində məlumat bazası yaratmaq;

6.2.8. regional təşkilatların təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirak etmək, habelə bu cür tədbirlərin ölkədə təşkil edilməsini təmin etmək;

6.2.9. regional təşkilatlarla əməkdaşlıq sahəsində Nazirliyin rəhbər şəxslərinin təmsil olunduğu bu və ya digər tədbirlər, səfərlər və görüşlərlə bağlı müvafiq təşkilati işlər həyata keçirmək, iştirak etmək və bununla əlaqədar hesabatlar hazırlamaq;

6.2.10. regional təşkilatlar tərəfindən qəbul edilmiş aidiyyəti proqramların və layihələrin Nazirliyin fəaliyyət istiqamətləri üzrə ekspertizasını həyata keçirmək və bu sənədlərin milli prioritetlərlə uzlaşdırılması üçün təkliflər hazırlamaq;

6.2.11. ölkə ilə Avropa İttifaqı arasında əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi üzrə hüquqi və təşkilati tədbirləri icra etmək, Avropa İttifaqı ilə əməkdaşlıq və institusional quruculuq alətlərinin səmərəli təşkilinin təmin edilməsi, sahələrin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.2.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə

edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.